Azərbaycan Dövlət İqtisad Universiteti

İQTİSADÇI

№ 79 (859) Aprel 2015

ADİU-da London İqtisadiyyat Məktəbinin diplomunu almaq mümkün olacaq

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq olunan "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda xüsu-si diqqət ayrılan təhsil sahəsində beynəlxalq təcrübə və mütərəqqi xarici modellərin ölkəmizdə tətbiqi məsələsini əsas tutaraq, universitetimiz iqtisadiyyat yönümlü ali məktəblər arasında dünyanın qabaqcıl universiteti olan London Universiteti - London İqtisadiyyat Məktəbi (LSE) ilə əməkdaşlığa başlayıb.

Əldə olunan razılığa əsasən, Azərbaycanlı tələbələr Avropanın ən nüfuzlu iqtisadiyyat məktəbinin bakalavr diplomunu ADİU-da əldə etmək hüququ qazanacaq.

Qeyd olunan əməkdaşlıq tədris və təlim xidmətləri sahəsində dünyanın ən nüfuzlu təşkilatlarından biri olan "Pearson" şirkətinin Oxbridge Educational Services (OES) təşkilatının dəstəyi ilə həyata keçiriləcək. Əməkdaşlıq çərçi-vəsində ADİU-da London İqtisadiyyat Məktəbinin bakalavr dərəcə proqramının təşkili, eləcə də Universitet Hazırlıq Proqramı və Pearson Beynəlxalq Kvalifikasiya proqramlarından olan LCCI təlimləri həyata keçiriləcək.

Aprelin 3-də ADİU-da qeyd olunan məsələləri özündə əks etdirən razılaşma memorandumunun imzalanma məra-simi keçirilib. Tədbirdə Təhsil nazirinin müavini Ceyhun Bayramov, dövlət qurumları-nın və ali təhsil müəssisələrin nümayəndələri iştirak edib.

Memorandum rektor, professor Ədalət Muradov və Oxbridge Educational Services təşkilatının rəhbəri Keyt Şarp tərəfindən imzalanıb.

Memoranduma əsasən London İqtisadiyyat Məktəbi-nin 3 illik proqramına qoşulacaq tələbələr Azərbaycanda London Universiteti - LSE-nin Humanitar və Sosial Elmlər sahəsi üzrə bakalavr dərəcəsini əldə etmək hüququ qazanacaq. Proqram çərçivəsində Mühasi-bat və Maliyyə, Biznes və Menecment, İqtisadiyyat, İqtisadiyyat və Maliyyə, İqtisadiyyat və Menecment ixtisasları üzrə bakalavr dərəcəsi verilməsi nəzərdə tutulub. London Universiteti - LSE-nin mövcud kurrikulumuna uyğun olaraq, ADİU-da hər il 4 fənn olmaqla 3 il ərzində 12 əsas fənn tədris olunacaq.

Proqram üzrə dərslər bütövlükdə ingilis dilində aparılacaq, London İqtisadiy-yat Məktəbinin dərsliklərindən və tədris vəsaitlərindən istifadə olunacaq. Tələbələr 5 milyonluq nəşr kolleksiyası ilə iqtisadiyyat sahəsində dünyanın ən böyük kitabxanasına malik LSE-nin elektron kitabxanasından tamhüquqlu istifadə imkanı əldə edəcək. Tədris prosesinə London İqtisadiyyat Məktəbindən dəvət edilən professorlarla yanaşı, OES və ADİU-nun yerli və xarici müəllimləri də cəlb olunacaq. Proqramı müvəffəqiyyətlə bitirən məzunlar London Universiteti-London İqtisadiyyat Məktəbinin bakalavr diplomunu əldə edəcəklər.

1895-ci ildə təsis edilmiş London iqtisadiyyat və siyasi elmlər məktəbinin (LSE) şüarı «rerum cognoscere causas» "hər şeyin səbəbini dərk et" kimi tərcümə edilir. Bir neçə Nobel mükafatı laureatları ilə əməkdaşlıq edən məktəbdə 9 minə yaxın tələbə daimi əsaslarla təhsil alır (o cümlədən 32% Birləşmiş Krallıqdan, 19% AB ölkələrindən və 49% dünyanın digər ölkələrindən – yəni əcnəbi tələbələr 68%! təşkil edir).

LSE-nin kitabxanası ictimai elmlər üzrə dünyanın ən iri kitabxanası hesab edilir. Kitabxananın Fondunda 4 milyondan çox kitab vahidi, 20 mindən çox dərgi saxlanılır. Rəflərin ümumi uzunluğu 50 km-dir.

LSE Londonda təhsil binaları ilə yanaşı bir neçə tələbə yataqxana- mehmanxanaya sahibdir. Məktəbin məzunları arasında Panama, Sent-Lüsiya, Keniya, Qana, Kolumbiya, Mavriki, ABŞ (Con Kennedi) dövlət başçıları, Danimarka kraliçası, Barbados, Kanada, Dominik, Tailand, Yamayka, İtaliya, Mavritaniya, Nepal, Yunanıstan, İsrail baş nazirləri, 14 Nobel mükafatı laureatı, C.Soros, Dünya bankının vitse-prezidenti, onlarla rektorlar, tanınmış beynəlxalq təşkilatların rəhbər heyətlərinin nümayəndələri var.

Məktəbin 260 alim, tədqiqatçı və texniki işçilərdən ibarət tədqiqat laboratoriyası tətbiqi iqtisad, maliyyə və sosial elmlər sahəsində ən mötəbər mərkəzlərdən biridir.

ADİU ilə Rusiyanın "Ali İqtisadiyyat Məktəbi" Milli Tədqiqat Universiteti arasında saziş imzalanıb

Azərbaycan Respublikası Təhsil nazirinin müavini Ceyhun Bayramovun rəhbərlik etdiyi nümayəndə heyəti "Moskva Beynəlxalq Təhsil Salonu"nda iştirak məqsədilə Moskvaya səfəri çərçivəsində Rusiyanın "Ali İqtisadiyyat Məktəbi" Milli Tədqiqat Universitetinin rektoru, profes-sor Yaroslav Kuzminov ilə görüşüb. Görüş zamanı iki ölkə arasında hərtərəfli əməkdaşlqda ali təhsil sahəsində əlaqələrin mühüm əhəmiyyət daşıması və bu istiqamətdə mövcud əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların mövcud olması diqqətə çatdırılıb.

Daha sonra Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və Rusiyanın "Ali İqtisadiyyat Məktəbi" Milli Tədqiqat Universitetinin (AİM-MTU) rektoru, profes-sor Y.Kuzminov iki universitet arasında "Elm, tədris və mədəniyyət sahəsində əməkdaşlığa dair Saziş" imzalayıblar.

Sazişdə Rusiyanın nüfuzlu ali təhsil müəssisələrindən biri olan Ali İqtisadiyyat Məktəbi ilə tələbə mübadiləsi, ikili diplom proqramlarının hazırlanması, birgə elmi-tədqiqat layihələrinin, müəllim və tələbələr üçün təcrübə proqramlarının həyata keçirilməsi nəzərdə tutulur. Eyni zamanda, ADİU tələbələrinin təhsillərini AİM–MTU-nun magistratura pilləsində davam etdirməsi, yeni təlim texnologiyalarından birgə istifadə olunması da sazişdə öz əksini tapıb.

Qeyd edək ki, cari ilin fevralında AİM-MTU tərəfindən sonuncu kurs tələbələri üçün olimpiadanın məhz ADİU-nun bazasında keçirilməsi iki universitet arasında əməkdaşlığın inkişafına xüsusi təkan verib.

Rusiyanın aparıcı ali məktəblərindən biri kimi dünya universitetlərinin reytinq siyahısına daxil olan AİM–MTU müasir tədris metodları və idarəetmə sistemlərinin tətbiqi, ali təhsillə elmi tədqiqatların səmərəli inteqrasiyasının təmin olunması, Avropa və Amerikanın qabaqcıl universitetləri ilə ikili diplom proqramlarının reallaşdırılması istiqamətlərində mühüm uğurlar əldə edib.

Fransa universitetləri ilə əməkdaşlıq memorandum imzalanıb

Aprelin 2-də Strasburq Universitetinin prezidenti Alen Beretzin rəhbərliyi ilə Fransa ali təhsil müəssisələrinin rəhbərlərindən ibarət nümayəndə heyəti universitetimizdə olub.

Rektor, professor Ədalət Muradov qonaqlara universitet haqqında ətraflı məlumat verib. Strasburq Universitetinin prezidenti Alen Beretz iqtisadiyyat və menecment sahəsində araşdırmaların mühümlüyünü bildirib. İki universitet arasında tədqiqatçı mübadiləsinin vacibliyini vurğulayıb.

Sonra Fransanın Ruen Universiteti və Reims Şampan Arden Universitetləri ilə ADİU arasında anlaşma memorandumu imzalanıb. Hər iki sənəddə universitetlər arasında tələbə-müəllim mübadiləsi və birgə təhsil proqramlarının təşkili nəzərdə tutulur.

Fransanın Azərbaycandakı səfiri cənab Paskal Mönye və Strasburq Universitetinin prezidenti Alen Beretz universitetimizdə olublar.

SABAH tələbələri ilə görüşən səfir Paskal Mönye iki ölkə arasında təhsil sahəsində əlaqələrin genişləndirilməsindən danışıb və bu əməkdaşlığın inkişafına hərtərəfli dəstək göstəriləcəyini bildirib.Sonra Strasburq Universitetinin prezidenti Alen Beretz SABAH tələbələrinə "Fransada ali təhsil və tədqiqat: xarici tələbələr üçün imkanlar" mövzusunda mühazirə oxuyub. A.Beretz Fransada ali təhsil institusiyaları, yüksək keyfiyyətli tədqiqatlar, strategiyalar, tətbiq olunan son yeniliklər barədə məlumat verib.

Koç Universiteti əməkdaşlığa başlayırıq

Aprelin 7-də Türkiyənin Koç Universitetinin rektoru, professor Umran Savaş İnan Azərbaycan Dövlət İqtisad Universitetində olub.

Rektoru, professor Ədalət Muradovla görüşdə birgə iqtisadiyyat və biznes profili üzrə doktorantların yetişdirilməsi, ADİU-nun İngilis Dilində Tədris Mərkəzi, "SABAH" Qrupları və "İnnovativ Biznes-İnkubator" ilə Koç Universitetinin müvafiq strukturları arasında əməkdaşlıq əlaqələrinin qurulması imkanları müzakirə edilib.

ADİU-nun professor-müəllim heyəti ilə görüşdə Umran Savaş İnan Koç Universiteti haqqında geniş məlumat verib, ali tədris prosesindəki innovativ tendensiyalardan danışıb. Doktorantların elmi fəaliyyətə cəlbi istiqamətində həyata keçirilən layihələr barədə məlumat verib. Müəllimləri maraqlandıran sualları cavablandırıb.

Sonda Azərbaycan Dövlət İqtisad Universiteti ilə Türkiyənin Koç Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Sənədə görə iki universitet birgə elmi-tədqiqat işləri üzərində əməkdaşlıq edəcək, strateji layihələr hazırlayacaq və ikitərəfli müəllim-tələbə mübadiləsi həyata keçirəcək.

ADİU-da elektron kitabxananın təqdimatı keçirilib

Azərbaycan Dövlət İqtisad Universitetində elektron kitabxananın təqdimat mərasimi keçirilib. İnteraktiv formatda keçirilən tədbirdə sayt barəsində geniş informasiya çatdırılıb.

Library.asue.edu.az domainində qurulan elektron kitabxananın saytında 5 dildə 2573 adda kitab təsvir olunub. Bazaya yerləşdirilən kitabların 402 ədədi yüklənə bilən "PDF" (danışabilər sənəd forması) formatındadır. Zəngin resurslara malik saytda elektron mühazirələr, video-dərsliklər, monoqrafiyalar, dərs vəsaitləri, müvəqqəti və daimi istifadəyə verilən məlumat bazalarına keçidlər (EBSCO Host), qəzet və jurnalların veb səhifələrinə keçidlər, fənlər üzrə işçi tədris proqramları (syllabus) yerləşdirilib.

Saytın xidmətlər bölümündə tələbələrin istifadəsini optimallaşdıran 4 xidmət yaradılıb. Bunlar "kitab istəmə", "rəy bildirmə", kitabxana üzrə virtual tur, "elektron kitabxanaçı" xidmətləridir.

Elektron kitabxanaçı müvafiq şəxs tərəfindən idarə olunur və iş saatları ərzində daxil olan müraciətləri operativ şəkildə cavablandırır. "Kitab istəmə" xidmətinin özəlliklərindən biri qeyri-iş vaxtlarında da istifadəçilərin istəklərini də qeydə ala bilməsidir. Rəy bildirmə hissədə istifadəçilər sayt və kitab barəsində öz rəylərini qeyd edə bilərlər.

Saytda həmçinin milli və xarici kitabxanaların icazə verilən bazalarına daxil olmaq üçün şərait yaradılıb. Xarici kitabxanalardan Rusiya, Almaniya, Fransa, Avstraliya və Böyük Britaniyanın Milli Kitabxanasına, ABŞ-ın Konqres Kitabxanasına keçidlər yerləşdirilib.

Tədbirin sonunda görüş iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

İQTİSADİ KALEYDOSKOP

YUMURTANI QIZILA ÇEVİRƏNLƏR

Kubada milyonlarla yumurtaları oğurlayıb "qara bazarda" satan 18 yüksək vəzifəli məmurun məhkəməsi baş tutdu. Yumurtalar hesabına qızıl içində üzən (prokurorların bildirdiyinə görə, dövlətdən 350 min dollara yaxın pul oğurlanıb) məmurlara məhkəmə ağır cəzalar verdi: 15 ilə qədər həbs.

GÖYDƏN ÜÇ MİLYARD DÜŞDÜ

Türkiyənin mərkəzi bankı ölkəyə 4,3 milyard dollar kapitalın gəldiyini açıqladı. Maraqlıdır ki, kapitalın əsas hissəsinin mənşəyi məlum deyil və "Errors and omissions" - "Yanlışlıqlar və nəzərdən yayınanlar" adlı bölmədə göstərilib. Qeyd edək ki, bu cür bölmələrdə bir qayda olaraq, qeyri-leqal yollarla, vasitələrlə gəlmiş kapitallar qeyd edilir (Məsələn, ABŞ-da 1997-ci ildə bu bölmə üzrə 132 milyard dollar göstərilib).

Əksər ekspertlər bu tip kapital axınlarına etimadlı investisiya kimi yanaşmamağı tövsiyyə edirlər, çünki onlar gizli gəldikləri kimi, bir an içində də gizli yox ola bilərlər. O ki, qaldı, pulların mümkün mənşəyinə, mütəxəssislər Türkiyənin çoxdan Yaxın Şərq və Balkanlardakı investorlar üçün sakit limana çevrildiyini bildirirlər.

DÜNYANIN ƏN BƏDBƏXT İQTİSADİYYATLARI

Blumberq agentliyi dünyanın ən kasıb iqtisadiyyatlarının yeni reytinqini açıqlayıb. Qeyd edək ki, reytinq iqtisadiyyatların həcminə deyil, işsizlik səviyyəsi+istehlak qiymətlərinin indeksinin dəyişməsi düsturu əsasında hazırlanır. İndeksi 20 balı aşdığı ölkələrdə əhalinin zorakılıq addımlarına əl atmaq ehtimalının yüksək olduğu hesab edilir.



1918-ci il soyqırım qurbanları anıldı

Martın 31-də Azərbaycanlıların Soyqırımı Gününə həsr olunan anım mərasimi keçirilib.

Mərasimdə çıxış edən rektor, professor Ədalət Muradov bildirib ki, Azərbaycan XX əsrdə dörd dəfə erməni millətçiləri tərəfindən etnik təmizləmə və deportasiyaya məruz qalıb. 1918-ci ilin mart qırğını da xalqımıza qarşı zaman-zaman həyata keçirilən soyqırımı siyasətinin ən dəhşətli təzahürlərindən biridir. Rektor qeyd edib ki, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə olunub. Ulu Öndər Heydər Əliyevin 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanında bu hadisələrə siyasi qiymət verildiyini vurğulayan rektor, əlavə edib ki, biz gənclərdə möhkəm milli yaddaş formalaşdırmalı və düşmənə münasibətdə onlara nümunə olmalıyıq.

YAP ADİU ilk təşkilatının sədri Zəfər Bayramov çıxış edərək bildirib ki, azərbaycanlılara qarşı soyqırımı siyasəti erməni millətçiləri tərəfindən uzun illər boyu planlı və məqsədyönlü surətdə həyata keçirilib.

Tədbirdə Beynəlxalq münasibətlər kafedrasının müdiri, professor B.Abdullayev, "Azərbaycan tarixi" kafedrasının dosenti Y.Fərzəliyev və digər iştirakçılar da çıxış ediblər. Çıxış edənlər erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri dəhşətləri unutmaq qeyri-mümkündür, deyərək, erməni terror təşkilatlarının törətdikləri cinayətlərin təkrar olunmaması üçün milli birlik nümayiş etdirilməsinin vacibliyini vurğulayıblar.

Tədbirdə ADİU "İqtisadçı" Tələbələrə Dəstək İctimai Birliyinin hazırladığı videoçarx nümayiş etdirilib. Videoçarxda Azərbaycan, türk, ingilis, çex, çin, ispan, alman, isveç və rus dillərində 31 Mart - azərbaycanlıların soyqırımı barədə məlumat verilib.

Ermənilərin Türklərə qarşı soyqırım və deportasiyası

Türkiyənin Balıkəsir Universitetindəki "Ermənilərin Türklərə qarşı soyqırımı" adlı konfransındakı cıxışından

Pərviz Səmədov,
Beynəlxalq Münasibətlər kafedrasının müəllimi

1990-cı illərdə Sovet İttifaqı dağılmağa başlayanda Ermənistan öz dövlət quruculuğunu Türkiyəyə və Azərbaycana qarşı düşmənçilik sütunları üzərində inşa etməyə başladı. Ermənistanın 23 avqust 1990-cı ildə qəbul etdiyi Müstəqillik Bəyannaməsinin girişində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə dair 1 dekabr 1989-cu il tarixli qanuna istinad edilmiş, 11-ci maddədə isə Ermənistan Respublikasının 1915-ci ildə "Osmanlı Türkiyəsi və Qərbi Ermənistanda yaşanmış erməni soyqırımı"nın tanıdılması üçün səy göstərəcəyi yazılmışdır. Göründüyü kimi, Ermənistan, sadəcə, Qarabağın Azərbaycan-dan qoparılması siyasətini yürütməklə kifayətlənməmiş, eyni zamanda, Türkiyə torpaqlarından "Qərbi Ermənistan" deyə bəhs edərək bir yandan torpaq iddiası irəli sürmüş, digər tərəfdən də yalançı "soyqırım"ı tanıtmağı özünün dövlət prinsipi şəklinə gətirmişdi. Ermənistan 13 oktyabr 1921-ci ildə Qars müqaviləsi ilə müəyyən edilmiş sərhədləri bu günə qədər tanımamışdır. Belə bir vəziyyətdə Türkiyə hökuməti hətta Amerikadan iki gün əvvəl, yəni 24 dekabr 1991-ci ildə Ermənistanı tanımışdır. Ermənistanın 1920-ci il Sevr müqaviləsində qurulmuş olmasının səbəbi, 1917-ci ildə Rusiyadakı kommunist rejiminin yayılmasına qarşı İngiltərə dövlətinin bir istifadə edə biləcəyi dövlətlə əngəl olmaq siyasətidir [107, 133]. Belə bir vəziyyətdə qurulan Daşnaksutyun, Qafqazda, Türkiyə və Avropada təşkilatlanaraq, Türkiyə və Azərbaycan əleyhinə şiddət və dəhşət saçan fəaliyyətlərə nə şəkildə başlamışdısa,indi də eyni fəaliyyətləri davam etdirməkdədirlər. Ermənilərin türklərdən istədikləri şəhərlər aşağıdakılardır.

"Qars, Van, Ərzurum, Harput, Diyarbakır, Bitlis, Sivas, Adana və Kilikyanın güneyi" 1887-ci ildə İsveçrədə qurulan erməni "Hınçaq" təşkilatı da eyni xəyallarla yaşayırdı. Bu məqsədlə ermənilər Anadolunun güneyinə silahlı hücumlar edirdilər. XIX əsrin sonlarında Osmanlını parçalamaq istəyən imperialist dövlətlərin, xüsusilə də Rusiya, Fransa, İngiltərə və dolaylı olaraq ABŞ Osmanlı dövlətində yaşayan bütün xristianlardan türklər əleyhinə istifadə edirdilər.

Bu gün Vanın bir neçə kilometrliyində yer alan "Zeve Xərabəliyi" Hınçaq və daşnak zülmünün yadigarıdır.

Bir zamanlar Zeve böyük bir kənd idi. Ermənilər bu kəndi tamamən yandırmışlar, qocalar, qadınlar və uşaqları dünya tarixində görülməyəcək bir şəkildə (Xocalı qətliamında olduğu kimi) 2000 nəfər türkü xəncərlə doğram-doğram etmişlər [70, 233]. Ermənistan prezidenti Serj Sarkisyanın gənclərlə görüşündəki çıxışında "Qarabağı aldıq, Doğu tərəfi almaq da sizin vəzifənizdir" deməsi onu göstərir ki, Türkiyə-Azərbaycan əlaqələrində elə məsələlər var ki, bunlar Azərbaycanla birlikdə qərarlaşdırılaraq həll edilməlidir. Son iki əsr Azərbaycan türklərinin həyatında ən ağır və dözülməz işgəncələr, qırğınlar və deportasiyalarla yadda qalmışdır. Bu da təsadüfi deyildir. 1801-ci ildə rus qoşunlarının Lori Pəmbək bölgəsində İrəvan xanlığının ərazisinə daxil olması anından soydaşlarımız qaçqınlıq faciəsini yaşamaga məcbur olmuşlar [118]. Ermənistanda yaşayan azərbaycanlılar ilə əlaqədar aşağıdakıları söyləmək yerinə düşər. 1804-cü ildə bölgədə yaşayan 4336 ailədən 3226-sını azərbaycanlı türklər təşkil etməkdə idi. Digər millətlər də diqqətə alındıqda, bu tarixdə erməni əhalisi 1% təşkil etməkdə idi. Bu isbat rus generalı Sisyanovun arxivdəki məktubundan bəllidir. 1828-ci ildən sonra, yəni Türkmənçay müqaviləsindən dərhal sonra İrəvan Xanlığının ərazisi erməni vilayəti adlandırılmışdır. Müqavilədən az sonra İrandan 40.000, Türkiyədən 64.800 nəfər erməni köçürülərək gətirilmişlər. 1828-ci ildə əhalinin 73,8 faizini təşkil edən Azərbaycan türklərinin sayı 1834-cü ildə 46,2 faizə endirilmişdir.

Ermənistan Respublikası təşkil olunduqdan sonra Azərbaycan türklərinə qarşı soyqırım kompaniyası daha da gücləndirilib. Professor Castin Makkarti (ABŞ) yazır: "Biz dəqiq bilirik ki, 1820-ci ildən 1920-ci ilədək təxminən 600 min erməni Rusiya imperiyasının ərazisinə köçürülmüşdür. 2 milyon müsəlman isə Rusiyadan get¬mişdir".

Zaven Kokodyan yazır ki, Qəmərlidə olan 102 kənddən 94-də, Eçmiədzində olan 71 kənddən 67-də Azərbaycan türkləri yaşayırdı. Daşnak qırğınından sonra bu rəqəm köklü sürətdə dəyişilmişdi. Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra Qəmərlidəki 102 kənddən 75-də, Eçmiədzində isə 71 kənddən 52-də Azərbaycan türkləri yaşayırdı.

Erməni yazıçısı Xaçatur Abovyan "Böyük Ermənistanın yaraları"kitabında yazır ki,bizim 1-ci düşmənimiz kürdlər,ikincisi isə türklərdir.Hər ikisini yox etmək üçün kürdləri türklərə qarşı istifadə edərək,planlarımızı həyata keçirməklə həm hayfımızı alma,həm də arzumuza çatma şansımız var.Rus arxivinə görə həmin illərdə 30min erməni kolereya xəstəliyindən öldü. 160.000 erməni də Eçmiadzində açından ölübdürsə,elə bu rəqəmləri topladıqda,1.383.873 edir. Lozan müqaviləsindəki erməni sayı 1.579 mindirsə,indi təsəvvür edin ki, ermənilər necə hiyləgər və yalançıdırlar. Onsuz da indiki Ermənistanda olan 30-dan artıq inzibati rayonun hamısı vaxtı ilə azərbaycanlıların yaşayış məskəni olub. Hazırda həmin rayonların məcmusu Ermənistan Respublikası adlanır.

Şəhidlərimiz daima ehtiramla yad edilir

Martın 2-də Azərbaycan Dövlət İqtisad Universitetinin məzunu, şəhid Nazim Cəbrayılovun doğum günüdür.

Nazim İbrahim oğlu Cəbrayılov 1949-cu il martın 2-də Ağdam şəhərində anadan olub. 1970-cı ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Ticarətin iqtisadiyyatı" fakültəsini bitirib. Təyinatla Türkmənistanın Aşqabad şəhərinə göndərilib. Aşqabad şəhər DİŞ-nin SƏDM bölməsində işləyib. Nazim Cəbrayılov Kalininqrad milis məktəbində oxuyaraq ikinci ixtisas diplomu alıb. Bir müddət çalışdıqdan sonra vətənə qayıdaraq, 2711 saylı hərbi avtomobil dəstəsində hərbi mühəndis vəzifəsində işləyib.

Nazim Cəbrayılov 1988-ci ildə Ermənistanın Azərbaycana hərbi təcavüzü başladığı andan Vətənin ilk müdafiəçilərindən biri kimi daim ön cəbhədə olub. Qarabağ uğrunda gedən döyüşlərdə fəal iştirak edən baş leytenant N.Cəbrayılov Müdafiə Nazirliyinin əmri ilə tağım komandiri təyin olunub. Göstərdiyi böyük hünər və şücaətə görə 1994-cü il aprelin 13-də Nazim Cəbrayılov vaxtından əvvəl kapitan rütbəsinə təqdim edilib. Təəssüflər olsun ki, bu rütbəni daşımaq ona nəsib olmayıb. Həmin il aprelin 18-i igid komandir və onun əsgərləri üçün axırıncı döyüş olub.

Erməni millətçilərinə qan uddurduğuna görə düşmən Nazim Cəbrayılovun cənazəsini ailəsinə verməyib. Bu gün onun məzarı millətini, xalqını sevənlərin qəlbindədir.

Ölümündən sonra Nazim Cəbrayılov ölkənin ən ali mükafatı – "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

ÇANAQQALA SAVAŞI

Əjdər Qiyaslı
iqtisadçı alim, şair

Türkün türk mənliyi getmədi bada,
Günəştək parladı Çanaqqalada.
Əhdə sədaqəti,məsləki,andı...
Tanrı dərgahında məkan qazandı!
Çanaqqala! Əsrin zəfər meydanı,
Səhərin gözünün nurlanan danı...
Türkün güvəndiyi haqqın səsidir,
Misilsiz bir qeyrət səlnaməsidir.
Elə səlnamə ki ömrün üzüdür,
Qüdrətli ölkənin gülən gözüdür.
Xalqın iftixarı,başın tacıdır;
Günəşlə nurlanan Ayla bacıdır.
Bəşərə göstərdi ədalətini,
Böyük bir ölkənin mətanətini!..
Döyüş səhnəsini xatırlayanda,
Görün nə fəlakət baş verdi onda:
Ölkə qan ağlayır, odda yanırdı;
Fəlakət içində parçalanırdı!
Torpağın başından aşırdı dərdi,
Məni qurtar deyib haray çəkirdi.
Qəlbinə axırdı gözünün yaşı,
Qəm-qüssə olmuşdu könül sirdaşı...
Belə çox dözülməz darda, çətində,-
Ya olum, ya ölüm vəziyyətində
Türk xalqı hünərlə qalxdı ayağa;
Gözündə intiqam, od yağa-yağa.
Qartaltək şığıdı düşmən üstünə,
Dözdü polad kimi o ağır günə.
O çətin döyüşdə hər igid əsgər,-
Ölümdən qorxmayan, basılmayan ər,
Qoca da, uşaq da, qız da, gəlin də...
Zəfər silahını tutdu əlində;
Qeydinə qalmadı şirin canının,
Çəkdi cəfasını çətin anının...
Qan da su yerinə axdı o yerdə;
Səs-səda doğurdu bütün bəşərdə.
Puç oldu düşmənin mənfur niyyəti,
Özündə yaratdı məğlubiyyəti!
Haqqın, ədalətin ucaldı səsi;
Ölkəni bürüdü zəfər nəğməsi.
Vətən xilas oldu işğalçılardan.
Hamının gözündə şəfəqləndi dan.
Bundan öz "payını" götürdü hərə;
İbrət dərsi oldu cahangirlərə!
Tarix sinəsinə yazdı o günü;
Ədalətli verdi belə hökmünü:
Öz düşdüyü quyu çox olar dərin,
Özgə torpağına göz dikənlərin.
Tarix haqsızlığa dözmədi yenə,
Dəhşətli hiddətlə dedi düşmənə:
Nələr etdiyini bilirsənmi sən,
Özgə torpağında qətlə yetirsən!
Bölünmüş dünyanı bölürsən yenə,
Çoxdu bu şərəfsiz ölüm də sənə!
Köksündə kökləyib kamanı,tarı;
Sonra xatırlatdı zaman bunları:
İstiqlal uğrunda döyüş gedəndə,
Çəkilir həyatdan duman da, çən də...
Tanrı dərgahında nurlanır səma,
Azadlıq arzusu qovuşur kama!

KÖŞƏ YAZISI

Devalvasiyadan sonra Azərbaycan şirkətlərinin marketinq vəziyyəti

Azərbaycan iqtisadi sistemində baş verən son hadisələr milli bazardakı iştirakçılara təsirsiz ötüşmədi. Formatından asılı olmayaraq bütün növ sahibkarlıq fəaliyyətləri intibah və dirçəliş dövründən böhran tsiklinə qədəm qoydular. İlk növbədə özəl şirkətlər ciddi risklərlə qarşı-qarşıya dayandılar. Bu konteksdə xammalı ölkə xaricindən dollar məzənnəsi ilə sövdələşmə edənlər təşvişə düşüblər.

Qeyri-şərtsiz bu cür aurada şirkətlərin markeinq fəaliyyətləri də birmənalı olaraq dəyişib. Rəqabətqabiliyyətli mühitə inteqrasiya olunan milli bazar son hadisələrdən sonra ən yaxşı halda sabitlik dövrünə qədəm qoyub. Artıq iştirakçılar aralarında rəqabət faktoru əhəmiyyətini itirmişdir. Hazırda sahibkarları düşündürən yeganə paradiqma "sağ qalmaq"dır.

Bu prinsipi özündə ehtiva etmək üçün isə bir sıra məhdudiyyətlər tətbiq olunur. Əlavə xərclərin azaldılması maliyyə islahatlarının birinci dalğasıdır. Sahibkar gözündə əlavə xərc isə marketinq büdcəsi, işçi maaşı, istehsal keyfiyyətinə sərmayədir.

Əlavə xərci rəndələyəndə isə şirkətin mikro və makro mühitində ciddi dəyişikliklər başlayır. Marketinq xərcləri azaldıqca, təbliğat və təşviqat paralel şəkildə zəifləyir. Müştəri təfəkküründə "Top of mind" mövqeyində qərarlaşan bir brend öz yerini süni şəkildə tərk edir. Nəzərə alsaq ki, Azərbaycan müştərisi digər bəzi ölkələrlə nisbətdə az loyaldır və marketinq miksin "Price"na çox meyillidir, o zaman hadisələr gözlənildiyindən daha sürətlə baş verəcəkdir.

Bəhanəsi realistik olan sahibkar işçi maaşını kəsməklə, müəssisə daxilindəki resursların, insan kapitalının faydalı iş əmsalını aşağı salır. Stimullaşdırıcı səbəblər olmadan işçini "can yandırmağa" məcbur etmək qeyri-mümkündür.

Nəhayət sonuncu kriterya isə istehsal keyfiyyətindəki dəyişiklikdir. Əslində, milli bazardakı baş verən prosesləri anlayan hər bir istehlakçı "çanağın kimin başında çatlayacağını" yaxşı dərk edir. Böhran ərəfəsində rəflərdəki məhsulların keyfiyyəti hətta dəyişməsə belə, müştəri zehnində hər şeyin keyfiyyətsizləşəcəyi qəbul edilib. Müştəri davranışlarında itiriləcək risklərin olmadığını anlayan sahibkarlar da məhsul və xidmətlər üzrə keyfiyyət göstəricilərinə yenidən baxırlar. Ən yaxşı halda cüzi dəyişiklik ilə işləri kompensasiya edirlər. Ən pis halda isə istehsal xammalını başqa təchizatçıların köməyi ilə əvəzedicilərlə dəyişirlər. Porterin 5 gücü prinsipindəki "Əvəzedicilərin gücü" rəqabətqabiliyyətli mühitdə öz hegemonluğu bərpa edir.

Proseslərin nə zamana qədər davam edəcəyi isə müəmmalı şəkildə qalır. Şirkətlərin gərgin bazar şərtlərinə nə qədər tab gətirəcəyi isə bilinmir. Proseslərə ən yaxşı dəstək isə milli bazara dövlət dəstəyinin təminidir.

Azərbaycanda qiymət dəyişikliyi: sosial proqramların gücləndirilməsinə ehtiyac var

Son illərdə baş verən iqtisadi siyasi proseslər Azərbaycana da təsirsiz ötüşmədi. Manatın məzənnədəki kursunun sabit saxlanılması üçün bir sıra addımlar atan Mərkəzi Bank sonda manatın ucuzlaşdırılması barədə qərar qəbul etdi. Manatın ucuzlaşması tələbəsindən tutmuş yaşlısına qədər hamıda manatın sonrakı məzənnəsi, qiymətlər və digər mövzularda suallar yaradırdı. Bu suallara cavab tapmaq üçün Marketinq kafedrasının müdiri dos. Telman İmanovdan aldığımız müsahibəni sizə təqdim edirik.

Qiymət dəyişikliklərinin milli şirkətlərə təsiri haqqında danışan Telman müəllim qeyd etdi ki, "Qiymət dəyişikliklərinin milli müəssisələrə təsirləri şirkətlərin fəaliyyət göstərdiyi sektorlardan asılı olaraq fərqlidir. Ümumiyyətlə, gəlirlərin paralel surətdə yüksəlməməsi ilə müşahidə olunan qiymətlərin yüksəlməsi əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsinə və tədiyyə qabiliyyətli tələb həcminin azalmasına səbəb olur. Bu da alıcıların istehlakçı davranışına təsir göstərir, bu zaman gündəlik tələbat məhsullarının təchizatçıları ciddi surətdə proseslərdən təsirlənməsələr də, restoran, otel, turizm şirkətləri, lüks əşya istehsalçıları daha çox alıcı azlığından əziyyət çəkirlər. Çünki qiymət yüksəlməsi alıcıların qeyri-zəruri hesab etdikləri alışlardan imtina etməsinə səbəb olur. Manatın devalvasiyasi haqqında daha bir mühüm mövzu isə bu prosesin yerli istehsalçılara və idxala təsiridir. "Yerli istehsalçılara təsiri ümumən müsbət olsa da, nəzərə almaq lazımdır ki, yerli istehsalçılar ətraf dünyadan təcrid olunmuş şəkildə fəaliyyət göstərmir və istehsal etdikləri məhsulun bir çox tərkib hissələrini xaricdən idxal edirlər. Qiymət rəqabətqabiliyyətliliyi baxımından daxili istehsalçıların devalvasiyadan faydalandığını qeyd etmək olar: bu həm daxili bazarda idxal məhsulları ilə rəqabətdə, həm də xarici bazarlara ixrac zamanı müşahidə olunur. İdxalçılara təsiri isə ümumən mənfidir, çünki idxal məhsullarının qiymətləri bahalaşır və reallaşdırma problemləri meydana çıxır" deyə, qeyd edən Telman müəllim bildirdi ki, "Manatın devalvasiyasının daxili istehsalçılara təsiri müsbətdir. İxracata təsiri müsbətdir. Daxili bazarın inkişafı və qorunması üçün güclü vasitədir. Mənfi tərəfləri daha çox sosial vəziyyətin pisləşməsi ilə əlaqədardır, idxal məhsullarının bahalaşması, ümumən daxili bazarda qiymətlərin yüksəlməsi əhalinin sosial vəziyyətini pisləşdirə və ümumi iqtisadi inkişafa mənfi təsir göstərə bilər. Buna görə də sosial proqramların gücləndirilməsinə və əmək haqlarının yüksəldilməsinə ehtiyac var.

Maraq doğuran, eləcə də, çoxlarının diqqət mərkəzində olan məsələlərdən biri isə bundan sonra baş verəcək hadisələr, manatın məzənnəsinin dəyişib-dəyişməyəcəyidir ki, buna da iqtisadi ekspertimiz belə şərh verdi: "Milli valyutanın məzənnəsini bazar tənzimləmədiyinə və Mərkəzi Bank tərəfindən təyin olunduğuna görə iqtisadi məntiqə əsaslanaraq proqnozlar vermək çətindir. Lakin, ümumiyyətlə, qeyd etmək olar ki, milli valyutanın məzənnəsi neftin qiymətlərinin dünya bazarındakı qiymətlərindən asılı olacaq, dünya bazarında neftin qiymətləri 60 dollardan yüksək olarsa, ciddi devalvasiya olmayacaq, qiymətlər 50 dollardan aşağı olarsa ciddi risklər meydana gələcək."

Yazını hazırladı:
Elnur Məmmədov
(Maliyyə, qrup 482)

HERODOT KUBOKUNUN SEÇİM TURU



Universitetimizdə tələbələrin intellektual inkişafı, intellektual yarışların keçirilməsinə daima qayğı və diqqətlə yanaşılıb.

Tələbədən sadəcə dar ixtisaslı mütəxəssis deyil, dünyagörüşü genış, məntiqi düşüncəsi güclü, yaradıcı təfəkkürü çoxşaxəli olan əsl vətəndaş və ziyalı yetişdirmək amalı ali təhsil ocağımızda daima yüksək tutulur.

Bu qəbildən olan tədbirlərdən biri də 11 aprel tarixində keçirildi. Azərbaycan Gənclər Fondunun maliyyə dəstəyi və Azərbaycan İntellektual Oyunlar Klubunun təşkilati dəstəyi ilə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı tələbələr arası "Herodot Kuboku" İntellektual Yarışının universitetimiz üzrə birinci mərhələsi həyata keçirildi. Suallar Azərbaycan və ümumdünya tarixinin əlamətdar hadisələrini əhatə edirdilər.

Gözlənildiyi kimi, qalib profilləri sual mövzularına yaxın olan, intellektual yarışlarda fəallıq nümayiş etdirən "Beynəlxalq münasibətlər" ixtisası üzrə təhsil alan tələbələrdən ibarət "Ovod" komandası oldu. "Ovod" ikinci yer tutmuş "BAyunayted" komandası ilə birgə universitetimizi 24 aprel tarixində Park İnn otelində baş tutacaq "Herodot Kuboku" İntellektual Yarışının final mərhələsində təmsil edəcəklər.

MALİYYƏ ÜZRƏ SEMİNAR SEÇİRİLDİ

Martın 10-da Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərən Kapital Bazarı üzrə Təlim Mərkəzi universitetimizdə maliyyə üzrə seminarlar keçirmişdir.

Tədbirdə ADİU-nun Təcrübə və işədüzəltmə şöbəsinin rəhbəri Fuad Əliyev bildirib ki, bu təlimlərlə ADİU ilə QKDK arasında imzalanan təhsil, elm və təlim-tədris sahəsində birgə inkişaf fəaliyyətinə dair anlaşma memorandumunun icrasına başlanılır. Təlimlərdən başqa, memorandum çərçivəsində bu günlərdə ADİU-nun 30 tələbəsi QKDK-də istehsalat təcrübəsinə başlamışdır.

Kapital Bazarı üzrə Təlim Mərkəzinin direktoru Cəmilə Məmmədova seminarların məqsədindən danışmışdır. Bildirib ki, burada tələbələr maliyyə bazarları haqqında təməl bilikləri əldə edəcəklər. Növbəti mərhələdə isə elçilərin (Kapital bazarının bələdçiləri) seçilməsinə başlanılacaq. Elçilər yüksək nəticə göstərən tələbələr arasında seçiləcək və onlara öyrəndiklərini tətbiq etmək imkanı yaradılacaq. Sonuncu mərhələdə isə yüksək nəticə göstərən tələbələr QKDK-nın funksional şöbələrində, Milli Depozit Mərkəzi və Bakı Fond Birjasında, broker şirkətlərində iş təcrübəsinə cəlb ediləcəklər.

ONLARI TANIMAQ LAZIMDIR

FİRUDİN BƏY VƏZİROV

Doğum tarixi:19 aprel 1850-ci il

Çar ordusunda general-mayor rütbəsinə qədər yüksəlmiş, "Müqəddəs Stanislav", "Müqəddəs Anna", "Knyaz Vladimir"ordenləri ilə təltif olunub.

TEYMUR BƏY NOVRUZOV

Doğum tarixi: 20 aprel 1880-ci il Siravi əsgərlikdən general-mayor rütbəsinədək yüksəlmişdi. AXC-nin 1919-cu il tarixli əmrilə ordudakı əla xidmətlərinə görə general-mayor rütbəsi verilmişdir.



MİKAYIL RƏFİLİ

Doğum tarixi 25 aprel 1905-ci il

Şair, ədəbiyyatşünas, tənqidçi, tərcümeçi. 1935-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru (1944), professor (1945).



ELXAN QASIMOV

Doğum tarixi: 24 aprel 1945-ci il Azərbaycan kinorejissoru, aktyor, rejissor assistenti, Azərbaycanın əməkdar artisti.Filmoqrafiyası: "Əhməd haradadır", "Axırıncı aşırım", "Qatır Məmməd" və s.

Muxtar Maniyev

Doğum tarixi: 4 aprel 1935-ci il

Görkəmli kinoaktyoru, Azərbaycanın xalq artisti. "Ad günü", "Babək", "Bəyin oğurlanması", "Bizim Çəbiş müəllim", "Bəxt üzüyü", "Həm ziyarət, həm ticarət", "Lətifə", "Fransız" və s.



Leonid Vaynşteyn

Doğum tarixi: 20 aprel 1945-ci il

Bəstəkar, pedaqoq. "İlham" baleti, "Səhranın bəyaz günəşi" rok-operası, üşaqlar üçün "Çəkməli pişik", "Zoluşka" operaları, Böyük simfonik orkestr üçün 6 simfoniya, filmlər üçün musiqi və s.

AZAD NƏBİYEV

Doğum tarixi: 20 aprel 1945-ci il il Folklorşünas, filologiya elmləri doktoru, professor, Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar müəllim, AMEA müxbir üzvü.

Şəhriyar Məmmədyarov

Doğum tarixi:12 aprel 1985-ci il

Şahmat üzrə beynəlxalq qrossmeysterdir. Yeniyetmələrin Şahmat Olimpiyadasının qalibi, 18 və 20 yaşadək oğlanlar arasında Avropa birinciliyinin qızıl mükafatçısı

İlham Əliyev Azərbaycan gənclərinin intellektual inkişafının və gələcəyinin yaradıcısıdır

İlham Əliyev Azərbaycan gənclərinin intellektual inkişafının və gələcəyinin yaradıcısıdır.

Müstəqil Azərbaycan dövləti, müasir Azərbaycançılıq təfəkkürü və ideologiyası ümummilli liderimiz Heydər Əliyevin şah əsəridir. Məhz Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanın bu gün davamlı və uğurlu inkişaf etdirilməsi Azərbaycan Respublikasının siyasi və iqtisadi nailiyyətlərinin özülü və bazisidir. Möhtərəm Prezidentimiz İlham Əliyevin Heydər Əliyev prinsiplərini əməli şəkildə gerçəkləşdirməsi Azərbaycan gəncinin intellektual inkişafının qarantına çevrilmişdir.

Azərbaycanın müstəqil dövlət kimi ilk addımlarını atdığı zamandan gənclər Ümummilli liderimiz Heydər Əliyevin qayğısı ilə əhatə olunmuşlar. Ümummilli liderimizin gənclərə qayğısının və sevgisinin bariz göstəricilərindən biri 2 fevral tarixinin Gənclər Günü kimi qeyd edilməsidir. Əlbəttə, bu tarix il boyu gənclərə münasibətin yeni mərhələsidir və gənclərin hesabat günüdür. Odur ki, həmin gün Azərbaycan gənclərinin bayramıdır və tariximizdə önəmli yer tutmaqdadır. Gəncliyimiz 2 fevral tarixini böyük sevinc və məmnuniyyət hissi ilə hər il yüksək səviyyədə qeyd edir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən bu tarixin Azərbaycanda gənclər günü kimi qeyd edilməsi haqqında qərarı Ulu öndərimizin Azərbaycan gəncliyinə verdiyi qiymətin göstəricisidir. Ulu öndər Heydər Əliyev həyatının hər bir vaxtında, eləcə də hakimiyyətdə olduğu bütün dövrlərdə gənclərə daim xüsusi diqqət və qayğı ilə yanaşıb. Məhz Onun təşəbbüsləri və qəbul etdiyi qərarlar əsasında cəmiyyətimizdə gənc nəslin inkişafı üçün əməli addımlar atılıb, gənclərin yüksək təhsil alması, dövlət idarəçiliyində təmsilçiliyi, bütövlükdə cəmiyyətdə layiqli yer tutması üçün lazımi tədbirlər həyata keçirilib.

1996-cı il fevralın 2-də keçirilən forumda Ümummilli lider Heydər Əliyevin dediyi "Gənclər özlərini Azərbaycanın gələcəyi naminə layiqincə hazırlamalıdırlar. Hər bir gənc öz yolunu müstəqil Azərbaycan Respublikasının həyat yolu kimi qəbul etməlidir. Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən ibarət olmalıdır"-sözləri Azərbaycan Respublikasının maraqlarını və dövlətin gənclərlə bağlı siyasətinin istiqamətlərini müəyyənləşdirirdi. Məhz bunun nəticəsidir ki, 1997-ci ildə Ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə 2 fevral Azərbaycan tarixinə Gənclər Günü kimi düşdü.

Heydər Əliyev yolunun layiqli davamçısı olan cənab İlham Əliyev şəxsiyyəti və davranışları ilə gənclərə nümunə olduğu kimi, dövlət siyasəti ilə də bu sahədə mühüm işlərin həyata keçirilməsinə rəhbərlik etmişdir. 2005-ci ildə Azərbaycan respublikasının ölkə Prezidenti tərəfindən imzalanmış "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nda (2005-2009-cu illər) gənc nəslin Vətənə məhəbbət, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə olunması; gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi, onların hərbi xidmətə hazırlanması; gənclər arasında hüquq pozuntularının, narkomaniyanın və digər zərərli vərdişlərin profilaktikası sahəsində tədbirlərin həyata keçirilməsi; istedadlı gənclərin aşkar edilməsi, onların öz qabiliyyətlərini inkişaf etdirə bilmələri üçün şəraitin yaradılması; gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, bazar iqtisadiyyatının əsaslarına dair biliklərə yiyələnməsi, peşə hazırlığının yüksəldilməsi və məşğulluğunun təmin edilməsi məqsədi ilə tədbirlərin həyata keçirilməsi; sosial müdafiəyə ehtiyacı olan gənclərin, o cümlədən gənc ailələrin problemlərinin həllinə köməklik göstərilməsi; gənclərin sağlamlığının qorunması sahəsində tədbirlərin həyata keçirilməsi, kütləvi bədən tərbiyəsinin və idmanın inkişaf etdirilməsi və s. bu kimi müxtəlif vacib məsələlər nəzərdə tutulurdu. Bu prioritetlər tez bir zamanda uğurla həyata keçirilmişdir.

Prezident İlham Əliyev tərəfindən 2011-ci ildə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı təsdiq olunması Gənclərlə bağlı yeni və daha əhatəli siyasi xəttin başlanmasından xəbər verirdi. Bunun nəticəsi kimi gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönələn fəaliyyətlərin daha da təşkilatlandırılması və sistemləşdirilməsi məqsədilə Gənclər Fondu yaradılmışdır. Dövlət Proqramının əsas məqsədi Azərbaycan Respublikasında gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etmək olmuşdur. Proqram gənclərə dövlət qayğısının artırılması məqsədinə xidmət edir. Dövlət başçısının fərmanı ilə 2006-cı ildə Gənclər və İdman Nazirliyinin yenidən təşkil edilməsi ilə gənclər siyasətinin əsas icra orqanı qarşısında yeni vəzifələr qoyulmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2007-ci il ölkədə "Gənclər ili" elan edilmişdir.

"Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı" (2006-2010-cu illər), "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı" (2007-2012-ci illər) gənclər siyasətinin daha da təkmilləşdirilməsini təmin edir, gənclərin yaradıcılıq imkanlarının müəyyən olunmasına, yaradıcılıq potensialının gerçəkləşdirilməsi üçün lazımi şəraitin yaradılmasına, gənclərin intellektual səviyyəsinin yüksəldilməsinə, xüsusi istedadlı gənclərin seçilməsinə və onlarla müvafiq tədbirlərin həyata keçirilməsinə, gənclərin sosial problemlərinin həllinə böyük zəmin yaradır.

Bu gün gənclər bir çox dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes sahələrində və s. işlərdə təmsil olunur və cəmiyyətin sağlam inkişafına öz töhfələrini verirlər. Bunlardan başqa, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 5000 gəncin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi nəzərdə tutulmuşdur. Proqramın tələblərinə uyğun olaraq minlərlə azərbaycanlı gənc ölkəmizin ehtiyac duyduğu sahələr üzrə müxtəlif təhsil səviyyələri üzrə dünyanın ən qabaqcıl universitetlərinə göndərilmişdir.

İndi cəsarətlə demək olar ki, ölkəmizdəki sağlam gənclik Heydər Əliyevin yolunun davamçıları və İlham Əliyev siyasi iradəsinin yetirmələridir.

Əli Cahangirzadə
Maliyyə fakültəsinin tələbəsi

İQTİSADÇI
TƏLƏBƏ news

UNİVERSİADADA UĞURLARIMIZ DAVAM EDİR

Ali Təhsil Müəssisəsi tələbələrinin XII Respublika Universiadası start götürdüyü gündən indiyədək öz gərginliyi ilə davam edir.

İlk olaraq dama yarışlarında komandamız II yerə layiq görülmüşdür. Daha sonra turnirə şahmatçılarımız qoşulmuşdur. Şahmatçılardan Respublika çempionu Nərmin Xəlilova (621 qr. maliyyə) bütün görüşlərdə qalib gələrək qızlar arasında hamidan güclü olduğunu sübut etmişdir. Həmçinin onun komanda yoldaşları respublika çempionu Aqil Pirverdiyev (476 qr. uçot-iqtisad), Zaur Əlipənahlı (116 qr. ümumi iqtisad), Elçin Osmanov (61 qr. Biznes İnzibatçılığı), Rəhman Əhmədov (61 qr. biznes inzibatçılığı), İsmayılova Nərmin (540 qr. informatika və idarəetmə) yüksək nəticə göstərərək turnirin qalibi olmuşlar.

Növbəti turlarda cüdo və sərbəst güləş yığmamız III yerlə kifayətlənmişlər. Sərbəst güləşçilərimizdən Ağa Ramazanov (96 qr. maliyyə), Vəli Ələkbərov (117 qr. ümumi iqtisadiyyat) öz çəkilərində yarışın qalibi olaraq I yerə layiq görüşülmüşlər. Stolüstü tennis yarışlarında oğlanlardan və qızlardan ibarət komandamız 19 komanda arasında turnirin III mükafatçısı olmuşdur. Daha sonra turnirə qatılan basketbol və voleybol (oğlanlar) yığmamız yalnız yarımfinalda uduzaraq III yeri tutmuşdur. Komanda hesabında universitetimiz Ali təhsil müəssisələri arasında birinci ümumi komanda hesabında isə hələlik yalnız Azərbaycan Dövlət Tibb Universitetindən cüzi fərqlə geridə qalaraq, II yerdə gedir. Qalan idman növlərində də idmançılarımıza uğurlar arzulayır və onlardan mükafata layiq yerlər gözləyirik.

BƏXTİM

Nədənsə sevgidə gətirməyir bəxt
Bu mənim taleyim alın yazımdı
İstədim qəlbində quram böyük taxt
Sən mənə dedin ki, nəyə lazımdı?

Əvvəlki baxışlar yad olub mənə
Daha gözlərinə baxa bilmirəm,
Hər dəfə qarsımda görəndə səni
Demək istəyirəm: Səni sevirəm!

Sənin sə qəlbində basqa biri var
Bu acı həqiqət öldürür məni,
Bilsəm ki yolunda ölüm-itim var
Yənə də qəlbimdə sevərəm səni!

Cahid Məmmədov
(BIM-874)

Bütün tələbələri öz yaradıcılıqlarını bizimlə bölüşməyə dəvət edirik.

Stipendiya – imtahan dövrünün stressinə görə təzminatdır.

Amerika universitetlərinin birinə azərbaycanlı, alman və ingilis tələbə göndərilir. Hər birinə ilin sonunda nəticəsini təqdim etməli olduqları fərdi tapşırıq verilir.
Bir il sonra ingilis 12 dəftər gətirir:
-Buyurun, professor, hər ay üzrə gördüyüm işlərin hesabatı.
Alman üş qalın cild gətirir:
-Birincisi laborator tədqiqatlar, ikincisi nəzəri hissədir, üçüncüsü isə gəldiyim nəticələrdir.
Azərbaycanlı heç nə gətirmir. Professorun baxışındakı sualı görüb izah edir:
-Bilirsiniz, professor, dünən başım elə bərk ağrıyırdı ki!..

******

Müəllim:
-Soyadınız?
Tələbə:
-Məmmədov.
Professor:
-Siz niyə belə şənsiniz?
Tələbə:
-Birinci suala yaxşı cavab verdiyim üçün sevinirəm.

******

Müəllim imtahan zamanı bir tələbənin ehtiyatla "şparqalka" çıxartmaq cəhdlərini sezir. Diqqətlə onu müşahidə edir. İzləmə prosesinə aludə olur. Hər ikisi əsəbiləşməyə, tərləməyə başlayır. Nəhayət, professor dözmür:
-Di çıxart, çıxart, cəsarətli ol!

******

İqtisadçı oxuduğu təhsil müəssisəsini ziyarət edir və hal-hazırda imtahanlarda hansı sualların verildiyi ilə maraqlanır. Sualların onun cavanlıq illərindəkindən fərqlənmədiyini görüb təəccüblənir.
Yaşlı professor izah edir:
-Suallar eynidir, ancaq cavablar dəyişib.

ELANLAR

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Qarayev Cavid Qafqaz oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Süleymanlı Nizami Niyazi oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Məmmədov Cahid Mənsur oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Qasımzadə Bəxtiyar Məzahir oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Musalı Musa İslam oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Qiyasov Akif Sədi oğluna verilən tələbə bileti və təqaüd kartı itdiyi üçün etibarsız sayılır.

2010-cu ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən İbadzadə Arzu Ağabala oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən magistr Məmmədova Lalə Samir qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Qasımov Elmir Vidadi oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2011-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Abdullayev Orxan Fərhad oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Xəlilov Rövşən Xaləddin oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Paşayev Allahverdi Sahibəddin oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əsgərli Nəzrin Hatəm qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Hüseynova Aysel Aqil qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən magistr Nəbiyev Cahangir Qürbət oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Bağırov Firidun Vüqar oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Babazadə Sənan Nüsrət oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Səfərli Nərgiz İbrahim qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Rəsullu Firuzə Firuz qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Tağıyeva Gülxanım Tamerlan qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2011-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Fərzəliyev Vüqar Amil oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Tağıyeva Gülşən Famil qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Nəzərova Gülcan Namaz qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Cəlilova Qəmər Cəlal qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Məmmədov Heydər Əfqan oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əhmədzadə Murad Asif oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Mehdiyev Abbas Adəm oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Mehdi Əsəd İslam oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Məmmədli Toğrul Əsədulla oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Xanəlizadə Ayan Yaqub qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Quliyev İftixar Rövşən oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2010-cu ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Bağırlı Seymur Sahib oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2010-cuildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əliyev Faiq Elşən oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Rəhimov Şahin Nazim oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Hacıyev Vəli Ələddin oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Məmmədova Nərminə Azər qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Teymurlu Səkinə Mais qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2012-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əhmədova Xanım Bəkir qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2012-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Həşimzadə Mahmud Əhliman oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2012-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əzizli Rəşad Həbib oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Quliyeva Əminə Rafət qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Umudəliyev İlkin Sahib oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Mustafayev Xəlil Zahid oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Xələfov Arzu Mülkədar oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2011-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Məmmədova İnarə Niyaz qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Qulamova Nargin Namiq qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Məmmədzadə Nicat Rövşən oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: Anar Eyyubov
Redaktor-korrektor
Xatın Qocayeva

Müxbir- İlahəxanım Həsənova
Səhifələyici- Turan Cavadova
Fotomüxbir- K.Cəlilov, R.Məmmədov

Telefon:4926819
Ünvan: Bakı 370001
İstiqlaliyyət küçəsi 6.

Lisenziya № 259
Sifariş 166
Sayı 300